**NAXÇIVAN MUXTAR RESPUBLİKASININ**
**NAZİRLƏR KABİNETİ**

# Q Ə R A R

## İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta tariflərinin müəyyən edilməsi haqqında

«İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta tariflərinin müəyyən edilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 5 noyabr tarixli 200 nömrəli qərarından irəli gələn vəzifələrin təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır**:

1. İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta tariflərinin müəyyən edilməsi məqsədi ilə peşə riskinin dərəcələri Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2008-ci il 14 noyabr tarixli qərarı və Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin 2008-ci il 22 dekabr tarixli əmri ilə təsdiq edilmiş «İqtisadi Fəaliyyət Növləri Təsnifatının 3-cü versiyasına Əlavə»də nəzərdə tutulan iqtisadi fəaliyyət növləri üzrə aşağıdakı kimi müəyyən edilsin:

| İqtisadi fəaliyyət növü | İqtisadi fəaliyyət növünün seksiya və kodu |
|---|---|
| 1 | 2 |
| 1-ci risk dərəcəsi | |
| Yaşayış üçün yerlər tərəfindən xidmətlərin göstərilməsi | İ 55 |
| Proqram təminatının işlənməsi, bu sahədə məsləhətlər və bununla əlaqədar fəaliyyət | J 62 |

| | |
|---|---|
| İnformasiya xidmətləri fəaliyyəti | J 63 |
| Maliyyə fəaliyyəti (sığorta və pensiya təminatı üzrə xidmətlərdən başqa) | K 64 |
| Sığorta, təkrarsığorta və pensiya təminatı | K 65 |
| Hüquq və mühasibat uçotu sahəsində fəaliyyət | M 69 |
| Mərkəzi ofislərin fəaliyyəti və idarəetmə sahəsində fəaliyyət | M 70 |
| İctimai və humanitar elmlər sahəsində tədqiqatlar və işləmələr | M 722 |
| Reklam fəaliyyəti və bazarın öyrənilməsi | M 73 |
| Məşğulluq sahəsində fəaliyyət | N 78 |
| Səyahət agentliklərinin və turoperatorların əvvəlcədən sifariş etmə xidməti və bununla əlaqədar fəaliyyət | N 79 |
| Mənzərələrin dəyişdirilməsi üzrə xidmətlərin göstərilməsi | N 813 |
| Dövlət idarəetməsi və müdafiə; icbari sosial təminat | O 84 |
| İctimai birliklərin (təşkilatların) fəaliyyəti | S 94 |
| Toxunulmazlıq hüququ olan təşkilatların fəaliyyəti | U 99 |
| 2-ci risk dərəcəsi | |
| Avtomobillərin satışı | G 451 |
| Avtomobillər üçün hissələrin, qovşaqların və ləvazimatların satışı | G 453 |
| Avtomobil və motosikletlərin satışından başqa topdan satış | G 46 |
| Avtomobil və motosikletlərin satışından başqa pərakəndə satış | G 47 |
| Poçt və kuryer fəaliyyəti | H 53 |
| İçki və yeməklərin satışı ilə əlaqədar xidmətlərin göstərilməsi | İ 56 |
| Kinofilmlərin, video və televiziya proqramlarının istehsalı, səsyazma və musiqi nəşrləri ilə əlaqədar fəaliyyət | J 59 |

| | |
|---|---|
| Proqramların tərtib edilməsi, radio və televerilişlərin translyasiya edilməsi ilə əlaqədar fəaliyyət | J 60 |
| Məlumat texnologiyaları və hesablama texnikası sahəsində sair fəaliyyət | J 63 |
| Maliyyə xidmətləri və sığorta sahəsində yardımçı fəaliyyət | K 66 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | L 68 |
| Memarlıq, mühəndis axtarışları və bu sahələrdə texniki məsləhətlərin verilməsi | M 711 |
| Təbii və texniki elmlər sahəsində tədqiqatlar və işləmələr | M 721 |
| Digər peşəkar, elmi və texniki fəaliyyət | M 74 |
| Kirayə və lizinq fəaliyyəti | N 77 |
| Təmizlik işləri üzrə fəaliyyət | N 812 |
| Biznesin mühafizəsinə yönəldilmiş inzibati və sair əlavə fəaliyyət | N 82 |
| Təhsil | P 85 |
| Səhiyyə sahəsində fəaliyyət | Q 86 |
| Sosial xidmətlərin göstərilməsi | Q 87 |
| Yaşayışla təminatsız sosial xidmətlərin göstərilməsi | Q 88 |
| İncəsənət sahəsində sair fəaliyyətin göstərilməsi və mədəni-kütləvi əyləncəli tədbirlərin həyata keçirilməsi | R 90 |
| Kitabxana, arxiv, muzeylərin və digər mədəniyyət müəssisələrinin fəaliyyəti | R 91 |
| Qumar oyunlarının təşkili və mərc çəkmək üzrə fəaliyyət | R 92 |
| İstirahət və əyləncələrin təşkili üzrə fəaliyyət | R 932 |
| Sair fərdi xidmətlərin göstərməsi | S 96 |
| 3-c**ü** r**i**sk d**ərəcəsi** | |
| Birillik bitkilərin becərilməsi | A 011 |
| Çoxillik bitkilərin becərilməsi | A 012 |
| Bitkilərin çoxaldılması (əkilməsi) | A 013 |
| Heyvandarlıqla əlaqəli bitkiçilik | A 015 |
| Geyim istehsalı | C 14 |

| | |
|---|---|
| Poliqrafiya fəaliyyəti və yazılmış məlumatların daşıyıcılara çoxaldılması | C 18 |
| Oyun və oyuncaqların istehsalı | C 324 |
| Nəşriyyat fəaliyyəti | J 58 |
| Baytarlıq fəaliyyəti | M 75 |
| **4-cü risk dərəcəsi** | |
| Heyvandarlıq | A 014 |
| Kənd təsərrüfatı sahəsində xidmət göstərilməsi | A 016 |
| Balıq yetişdirmə | A 032 |
| Süd məhsullarının istehsalı | C 105 |
| Sabun və yuyucu tozların, təmizləyici və cilalayıcı vasitələrin, ətriyyat və kosmetika vasitələrinin istehsalı | C 204 |
| Əczaçılıq məhsullarının istehsalı | C 21 |
| Motosikletlərin, onların hissələrinin, qovşaqlarının və ləvazimatlarının satışı, motosikletlərə texniki xidmət və təmiri | G 454 |
| Yardımçı-texniki xidmətlərin fəaliyyəti | N 811 |
| Muzdlu işçilərlə şəxsi ev təsərrüfatlarının fəaliyyəti | T 97 |
| **5-ci risk dərəcəsi** | |
| Ovçuluq və vəhşi heyvanların yetişdirilməsi və bu sahələrdə xidmətin göstərilməsi | A 017 |
| Ət məhsullarının istehsalı (emalı) | C 101 |
| Dəyirman-ding sənayesi məhsullarının nişasta və nişasta məhsullarının istehsalı | C 106 |
| Un və un məmulatlarının istehsalı | C 107 |
| Heyvanlar üçün hazır yemlərin istehsalı | C 109 |
| İçki istehsalı | C 11 |
| Toxuculuq sənayesi | C 13 |
| İstintaqın aparılması və təhlükəsizliyin təminatı | N 80 |
| Dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı | C 15 |

| | |
|---|---|
| Mərkəzi istilik qazanlarından başqa buxar qazanlarının istehsalı | C 253 |
| İdman sahəsində fəaliyyət | R 931 |
| **6-cı risk dərəcəsi** | |
| Sair qida məhsullarının istehsalı | C 108 |
| Kompyuter, elektron və optik məhsulların istehsalı | C 26 |
| Zərgərlik məmulatlarının və süni daş-qaşların istehsalı | C 321 |
| Musiqi alətlərinin istehsalı | C 322 |
| İdman mallarının istehsalı | C 323 |
| Digər qruplara daxil edilməyən müxtəlif məhsulların istehsalı | C 329 |
| Bəzək və tamamlayıcı işlər | F 433 |
| Anbar təsərrüfatı və yardımçı nəqliyyat fəaliyyəti | H 52 |
| Kompyuterlərin, şəxsi istifadə əşyalarının, məişət mallarının təmiri | S 95 |
| **7-ci risk dərəcəsi** | |
| Meyvə və tərəvəzlərin emalı və konservləşdirilməsi | C 103 |
| Bitki və heyvan yağları və piylərin istehsalı | C 104 |
| Tütün məmulatlarının istehsalı | C 12 |
| Kağız və karton istehsalı | C 17 |
| Şüşə və şüşədən məmulatların istehsalı | C 231 |
| Odadavamlı məmulatların istehsalı | C 232 |
| Gildən sair tikinti məmulatlarının istehsalı | C 233 |
| Sair çini və saxsı məmulatların istehsalı | C 234 |
| Metalların emalı və metallara örtük çəkilməsi, maşınqayırmanın əsas texnoloci prosesləri | C 256 |
| Bıçaq məmulatlarının, alətlərin və dəmir məmulatlarının istehsalı | C 257 |
| 1 | 2 |
| Tullantıların yığılması, emalı və məhv edilməsi, istehsalat tullantılarından təkrar istifadə edilməsi | E 38 |
| Boru kəməri nəqliyyatının fəaliyyəti | H 495 |

| | |
|---|---|
| Texniki sınaq və nəzarət | M712 |
| 8-ci **risk dərəcəsi** | |
| Rezin və plastmas məmulatların istehsalı | C 22 |
| Gəmiqayırma | C 301 |
| Hazır metal məmulatlarının, maşın və avadanlıqların təmiri | C 331 |
| Şəhərlərarası dəmir yolu xətti ilə sərnişin daşınması | H 491 |
| Dəmir yolu vasitəsilə yük daşınması | H 492 |
| Su nəqliyyatının fəaliyyəti | H 50 |
| Hava nəqliyyatının fəaliyyəti | H 51 |
| Rabitə | J 61 |
| 9-cu **risk dərəcəsi** | |
| Mebeldən başqa ağacın emalı və ağacdan məmulatların və tıxacın istehsalı; hopdurma və hörmə materialların istehsalı | C 16 |
| Silah va hərbi sursat istehsalı | C 254 |
| Dəzgahların istehsalı | C 284 |
| Mebellərin istehsalı | C 31 |
| Tibbi və stomatologiya təcrübəsində tətbiq olunan alətlərin istehsalı | C 325 |
| Digər tullantıların yığılması və məhv edilməsi | E 39 |
| Sair quru yol nəqliyyatının fəaliyyəti | H 493 |
| Yük avtomobil nəqliyyatlarının fəaliyyəti | H 494 |
| 10-cu **risk dərəcəsi** | |
| Boya və lakların istehsalı | C 203 |
| Sair kimyəvi məhsulların istehsalı | C 205 |
| Süni və sintetik kimyəvi liflərin istehsalı | C 206 |
| Metalın döyülməsi, preslənməsi, ştamplanması və profillənməsi, toz metallurgiyası | C 255 |
| Elektrik naqillərinin və elektrik şəbəkələri üçün cihazların istehsalı | C 273 |
| Elektrik lampaları və işıqlandırıcı avadanlıqların istehsalı | C 274 |
| Məişət cihazlarının istehsalı | C 275 |
| 11-ci **risk dərəcəsi** | |

| | |
|---|---|
| Balıq, xərçəngkimilər və molyuskaların emalı və konservləşdirilməsi | C 102 |
| Abraziv məmulatların və sair qeyri-metal mineral məhsulların istehsalı | C 239 |
| Sair hazır metal məmulatlarının istehsalı | C 259 |
| Ümumi təyinatlı sair maşınların istehsalı | C 282 |
| 12-ci risk dərəcəsi | |
| Balıqçılıq | A 031 |
| Çuqun, polad və ferroərinti istehsalı | C 241 |
| Poladdan boru, içi boş profillər və birləşdirici hissələrin istehsalı | C 242 |
| Elektrik mühərriklərinin, generatorlarının, transformatorların və elektrik paylayıcı və tənzimləyici cihazlarının istehsalı | C 271 |
| Sair elektrik avadanlıqlarının istehsalı | C 279 |
| Ümumi təyinatlı avadanlıqların istehsalı | C 281 |
| Kənd və meşə təsərrüfatı üçün maşın və avadanlıqların istehsalı | C 283 |
| Avtomobil, qoşqu və yarımqoşquların istehsalı | C 29 |
| Dəmir yolu nəqliyyatı vasitələrinin istehsalı | C 302 |
| Hərbi avtomobillərin istehsalı | C 304 |
| Digər qruplara daxil edilməyən nəqliyyat vasitələri və avadanlıqlarının istehsalı | C 309 |
| Avtomobillərə texniki xidmət göstərilməsi və onların təmiri | G 452 |
| 13-cü risk dərəcəsi | |
| Meşə təsərrüfatı və bu sahədə xidmətin göstərilməsi | A 02 |
| Koks və təmizlənmiş neft məhsullarının istehsalı | C 19 |
| Əsas kimyəvi maddələrin, gübrə və azot birləşmələrinin, ilkin formalarda plastik kütlə və sintetik kauçukun istehsalı | C 201 |
| Sement, əhəng və gips istehsalı | C 235 |
| Əlvan metalların istehsalı | C 244 |
| Metal tökmə | C 245 |

| | |
|---|---|
| Xüsusi təyinatlı sair maşın və avadanlıqların istehsalı | C 289 |
| Sənaye maşın və avadanlıqlarının quraşdırılması | C 332 |
| Elektrik enerjisi, qaz, buxar və kondisiyalaşdırılmış hava ilə təchizat | D 35 |
| Suyun yığılması, təmizlənməsi və paylanması | E 36 |
| Çirkli suların yığılması və emalı | E 37 |
| Binaların sökülməsi və tikinti sahəsinin hazırlanması | F 431 |
| Elektrik və su kəməri sistemlərinin və sair mühəndis avadanlıqlarının quraşdırılması | F 432 |
| İxtisaslaşdırılmış tikinti işləri | F 439 |
| 14-c**ü** r**i**sk d**ərəcəsi** | |
| Daş kömür və liqnit hasilatı | B 05 |
| Xam neft və təbii qaz hasilatı | B 06 |
| Metal filizlərinin hasilatı | B 07 |
| Mədənçıxarma sənayesinin digər sahələri | B 08 |
| Mədənçıxarma sənayesi sahəsinə xidmətlərin göstərilməsi | B 09 |
| Aqrokimyəvi məhsulların istehsalı | C 202 |
| Beton, gips və sementdən məmulatların istehsalı | C 236 |
| Dekorativ və tikinti daşlarının kəsilməsi, emalı və naxışlanması | C 237 |
| Çuqun və poladın sair ilkin emalı | C 243 |
| Metaldan tikinti konstruksiyaları və məmulatlarının istehsalı | C 251 |
| Metal sistemlərin, radiatorların və çənlərin istehsalı | C 252 |
| 1 | 2 |
| Batareyaların, akkumulyatorların istehsalı | C 272 |
| Kosmik aparatlar da daxil olmaqla, uçan aparatların istehsalı | C 303 |
| Binaların tikintisi | F 41 |
| Mülkü təyinatlı inşaat işləri | F 42 |

2. İstehsalatda bədbəxt hadisələr va peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta tarifləri peşə riskinin dərəcəsindən və sığorta olunanların kateqoriyalarından asılı olaraq fərqləndirilməklə aşağıdakı kimi müəyyən edilsin:

| Peşə riskinin **dərəcəsi** | **Sığorta olunanların kateqoriyaları üzrə sığorta tarifi (faizlə)** | |
|---|---|---|
| | **qulluqçular** | **fəhlələr** |
| 1 | 0,2 | 0,4 |
| 2 | 0,2 | 0,5 |
| 3 | 0,2 | 0,6 |
| 4 | 0,2 | 0,8 |
| 5 | 0,2 | 0,9 |
| 6 | 0,3 | 1,0 |
| 7 | 0,3 | 1,2 |
| 8 | 0,3 | 1,4 |
| 9 | 0,4 | 1,5 |
| 10 | 0,4 | 1,6 |
| 11 | 0,4 | 1,7 |
| 12 | 0,5 | 1,8 |
| 13 | 0,5 | 1,9 |
| 14 | 0,5 | 2,0 |

3. Nəzərə alınsın ki, istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta tariflərinin müəyyən edilməsində istifadə olunan sığorta olunanların istehsalatda yerinə yetirilən əmək funksiyalarının xarakterinə görə kateqoriyalar üzrə bölgüsü Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 07 fevral tarixli 23 nömrəli qərarı ilə təsdiq edilmiş «İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta olunanların istehsalatda yerinə yetirilən əmək funksiyalarının xarakterinə görə kateqoriyalar üzrə bölgüsünün Qaydası» ilə tənzimlənir.

4. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri**: **Ə.Baxşıyev**

08 fevral 2011-ci il

№ 24